# “Məktəbəqədər təhsildə keyfiyyətə yeni baxış”

## II beynəlxalq konfrans keçirilib

Dekabrın 4-də “Məktəbəqədər təhsildə keyfiyyətə yeni baxış” adlı II beynəlxalq konfrans keçirilib.

Konfrans Elm və Təhsil Nazirliyi və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) təşkilatçılığı, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi və Təhsil İnstitutunun tərəfdaşlığı ilə baş tutub.

Konfransda elm və təhsil naziri Emin Əmrullayev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, millət vəkilləri, nazirliyin struktur bölmə rəhbərləri, ali təhsil müəssisələrinin rektorları, regional təhsil idarələrinin əməkdaşları, məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri, eləcə də Böyük Britaniya və Finlandiyadan olan məruzəçilər və yerli mütəxəssislər iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov qonaqları salamlayaraq 1-5 yaşlı uşaqların layiqli vətəndaş kimi formalaşmasında keyfiyyətli məktəbəqədər təhsilin önəmindən danışıb. Tural Əhmədov 2023-2024-cü illərdə 150 məktəbəqədər təhsil müəssisəsində keyfiyyət monitorinqlərinin keçirildiyini bildirib və daxili keyfiyyətin təmin olunması məqsədilə müəssisə rəhbərləri ilə təşkil edilmiş mentorluq proqramı barədə ətraflı məlumat verib.

Daha sonra elm və təhsil naziri Emin Əmrullayev çıxışında dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda təsbit olunmuş məktəbəqədər təhsilin nəticəyönümlü və ölçüləbilən hədəfləri barədə danışıb. Bu sahədə əhatəliliyin təmin olunması məqsədilə son illər həyata keçirilən işlərdən söz açan Emin Əmrullayev məktəbəhazırlıq qruplarının da əhəmiyyətini vurğulayıb və 1 illik proqramda iştirakın məktəbə daha hazırlıqlı başlamağa müsbət təsir etdiyini qeyd edib. Həmçinin nazir erkən təhsil pilləsinin insan həyatına əsaslı təsiri və məktəbəqədər təhsilin inkişaf dairəsinin genişləndirilməsi istiqamətində yeni modellər və gələcək planlara dair məlumat verib.

Elm və təhsil naziri çıxışının sonunda məktəbəqədər təhsil müəssisələrində keyfiyyət təminatını artırmaq üçün sertifikatlaşdırma prosesinin tətbiq ediləcəyini istisna etməyib.

Digər çıxışlardan sonra konfrans “Məktəbəqədər təhsildə yaşıl nümunələr və oyun əsaslı öyrənmə” və “Məktəbəqədər təhsildə davamlı keyfiyyət və onun idarə olunması” panelləri ilə davam etdirilib.

Panellərdə “Kindred” Erkən İnkişaf Fondunun direktoru, “Ofsted” - Təhsil, uşaqlara xidmət və bacarıqlar üzrə standartlar ofisinin İdarə Heyətinin üzvü, Böyük Britaniyanın Təhsil departamentinin məsləhətçisi Felesiti Gilespi, “Təbiətdə öyrənirəm”in rəhbəri, təbiət pedaqogikası üzrə təlimçi Qaye Amus, Vaşinqton Universitetinin assistent professoru Aytəkin Hüseynli, Cənubi Florida Universitetinin təhsilin idarə olunması üzrə doktorantı Lalə Orucova, Bakı şəhəri 23 nömrəli körpələr evi — uşaq bağçasının tərbiyəçi — müəllimi Nərmin Məhərrəmova təqdimatla çıxış ediblər.

Qeyd edək ki, “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr edilən konfransın keçirilməsində məqsəd beynəlxalq təcrübənin müqayisəli şəkildə öyrənilməsi və yerli xüsusiyyətlərin nəzərə alınaraq tətbiqi ilə məktəbəqədər təhsildə keyfiyyətin yüksəldilməsinə nail olmaq və yerli qabaqcıl təcrübənin geniş auditoriyaya çatdırılmasına xidmət etməkdir.





Emin Əmrullayev

“2026-cı ilin sentyabr-oktyabr aylarına qədər ölkə üzrə məktəbəqədər təhsildə əlavə 100 min yer açılacaq. 4-5 yaş və ya 3-4 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlbinin əhatə dairəsini artırmaq əsas məqsədlərdən biridir.

Hazırda Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi ən böyük islahatlardan biri 5 yaşlı uşaqların məktəbəhazırlıq siniflərinə cəlb edilməsi layihəsinin tətbiqidir. 30%-lik göstəricini 80-90%-ə yaxınlaşdırmağa nail olmuşuq. Bu rəqəmlər müxtəlif illərdə dəyişsə də, orta hesabla hər il uşaqların 80-90%-i ən azı, bir il məktəbəqədər təhsilə cəlb olunur”.

Çətin əlçatan ərazilərdə, heç vaxt məktəbəqədər təhsil müəssisəsi olmayan yerlərdə məktəbəqədər təhsilin təşkilini təmin edən bir model yaradılıb. Bu model ənənəvi modellərlə müqayisədə 10 dəfə daha ucuz başa gəlir. İndiyə qədər 20 minə yaxın Azərbaycan vətəndaşının bu modeldən faydalanması və hər il təxminən 20 min uşağın bu model vasitəsilə təhsilə cəlb olunması sevindirici haldır.

Hədəfimiz 2026-cı ilə qədər hər iki uşaqdan birinin (yəni 1-5 yaş arası uşaqların 50%-nin) məktəbəqədər təhsillə əhatə olunmasıdır. Bu, olduqca ambisiyalı və tarixi bir hədəfdir, çünki indiyə qədər bu göstəriciyə yaxınlaşa bilməmişik. Məktəbəqədər təhsilin əlçatanlığı və keyfiyyətinin artırılması sahəsində aparılan işlər daha da prioritetləşdirilməlidir”.

